

# BİRLƏŞDİRİCİ LİDER

**Azərbaycanın son yüz ildə ən böyük tarixi şəxsiyyəti olan Heydər Əliyev irsi həm keçmişimizi öyrənmək, həm də gələcəyimizi daha uğurla müəyyən etmək baxımından əvəzolunmaz sərvətdir. Heydər Əliyevin cəmiyyət və dövlət haqqında siyasi görüşlərinə, onun dinə və dinlərarası münasibətlərə dair söylədiyi fikirlərə və təcrübədə reallaşdırdıqlarına nəzər saldıqda bu gün multikulturalizm bir baxışlar toplusu kimi dəyərləndirilməlidir. Münasibətlərdə dözümlülük, səbirlilik və səmimilik kimi xüsusiyyətlərin xalqımıza tarixən xas cəhətlər olduğunu bir daha təsdiqləmək üçün müdrik siyasətçinin bizə və gələcək nəsillərə qoyduğu siyasi irs daha dərindən öyrənilməli, araşdırılmalı və geniş kütləyə çatdırılmalıdır.**

Ümummilli lider Heydər Əliyev, ümumiyyətlə, dünya dinlərinin və xüsusilə də islamın dəyərlərini yüksək qiymətləndirməklə yanaşı, Azərbaycanda dünyəvi dövlətin qurulması və möhkəmləndirilməsi üçün son dərəcə böyük işlər görmüş, 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin bəyan etdiyi əsas prinsiplərə sadiqliyini nümayiş etdirərək, özünün rəhbərliyi altında hazırlanmış yeni Azərbaycan Konstitusiyasında da dövlətin dindən ayrı olduğunu bir daha yenidən təsbit etmiş, xalqımızın kommunizm ideologiyasından uzaqlaşaraq islam dininin dəyərlər sisteminə qayıdışına münbit şərait yaratmış, ölkəmizdəki dini-tarixi abidələrin bərpasına, onların vətəndaşların istifadəsinə verilməsinə yardımçı olmuş, Azərbaycanda yaşayan müxtəlif dinlərə mənsub insanların öz dininə ibadət etməsi və ayinlərini yerinə yetirməsi üçün sərbəst mühit yaratmışdır.

Heydər Əliyev bu məsələdə dəfələrlə türk dünyasının böyük tarixi şəxsiyyətlərindən və sərkərdələrindən olan Mustafa Kamal Atatürkün mövqeyinə diqqət və hörmətlə yanaşmış, qardaş Türkiyənin bugünkü uğurlarının məhz multikulturalizm ideyalarından qaynaqlandığını xüsusi qeyd etmişdir. Ulu öndər deyirdi: "Mustafa Kamal Atatürk bütün dünyaya sübut etmişdir ki, müsəlman ölkəsində, əsrlər boyu dinin təsiri altında dini dövlət kimi yaşayan bir ölkədə cümhuriyyət, layiq cümhuriyyət (dünyəvi dövlət - S.İ.) qurmaq, demokratik yolla getmək olar. O, dünyanın bəşəri dəyərlərindən istifadə edərək, xalqının mənəvi dəyərlərini bunlarla birləşdirərək öz xalqını daha da yüksəkliklərə qaldırmışdır".

Ulu öndər dinindən, dilindən, milliyyətindən, irqindən asılı olmayaraq, hər bir insana, hər bir vətəndaşa eyni mövqedən yanaşmış, hüquqlarını tanımış və onları qorumaq üçün münbit şərait yaradılmasının, cəmiyyətdə tolerantlıq və dözümlülük prinsiplərinin bərqərar olmasının vacibliyini qeyd etmişdir.

Ümumiyyətlə, nəzərə alınmalıdır ki, bəşər tarixinin yaranmasında, inkişafında, bütövlükdə həyatın, dünyanın dərk olunmasında, cəmiyyətin formalaşmasında, onun qanunauyğunluqlarının öyrənilməsində və proseslərin idarə olunmasında dinin müstəsna rolu vardır. Bu amil, bir qayda olaraq, ölkələrarası münasibətlərin tənzimlənməsində, sülhün bərqərar olunmasında böyük əhəmiyyət daşımış və daşımaqdadır.

Ümummilli lider Heydər Əliyev hələ sovet dönəmində respublikaya rəhbərlik etdiyi illərdə Azərbaycanın mənəvi dəyərlərini və milli ruhunu yaşatmaq üçün mühüm işlər görmüş, bir çox məscidlərin tarixi-memarlıq abidəsi kimi bərpasına şərait yaratmış, onların dağıdılmasının qarşısını almışdır. Hətta Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə bu yaxınlarda bərpa edilən Gəncədəki "İmamzadə" dini ziyarətgah kompleksini məhvolma təhlükəsindən məhz Heydər Əliyev qurtarmış və sovet dönəmində yeganə müqəddəs ziyarətgah kimi dövlət qeydiyyatına alınması üçün o zamankı SSRİ rəhbərliyindən icazə ala bilmişdir.

Heydər Əliyev 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ölkədə hökm sürən gərginliyə baxmayaraq, yenə də islam abidələrinin bərpasına böyük əhəmiyyət vermişdir. 1993-cü il sentyabrın 5-də yenidən bərpa olunan Təzəpir məscidinin açılışındakı çıxışında Azərbaycanda tolerantlığın və dini dözümlülüyün qədim köklərə malik olduğunu xüsusilə vurğulamışdır: "Mən bu gün buradan bütün Azərbaycan vətəndaşlarına müraciət edirəm. Azərbaycan onun ərazisində yaşayan bütün xalqların doğma Vətənidir. Dinindən, dilindən, irqindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşı Azərbaycanın ərazi bütövlüyünü, Azərbaycanın dövlətçiliyini, Azərbaycanın müstəqilliyini qorumalıdır. Güman edirəm ki, Azərbaycanda yaşayan, Azərbaycan vətəndaşları olan, Azərbaycan Respublikasının bütün nemətlərindən bərabər hüquqla istifadə edən başqa dinlərə mənsub olan bizim qardaşlarımız, vətəndaşlarımız da bu yolda bizimlə bir olacaqdır. Biz hamımız birləşib bir yumruq kimi həm Azərbaycanın müstəqilliyini qoruyacağıq, həm də Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyik".

Doğrudan da, ulu öndərin dediyi kimi, Azərbaycanda yaşayan bütün millətlərin, dinlərin nümayəndələri tarix boyu müstəqilliyimiz uğrunda böyük fədakarlıq nümayiş etdirmiş, bu xalqların onlarca nümayəndəsi - ruslar, ləzgilər, avarlar, məshəti türkləri və başqaları göstərdikləri qəhrəmanlığa görə respublikanın ali mükafatlarına layiq görülmüşlər. Onların adlarını bu gün Azərbaycanda çox adam əzbər bilir.

Ümummilli lider islam dininin həmişə tərəqqipərvər və dünyəvi əhəmiyyətini qoruyub saxlayacağını düşünürdü: "Heç şübhə yoxdur ki, islam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün islam dininə itaət edənlərin hamısını xoşbəxtliyə, səadətə gətirib çıxaracaqdır... biz islam dininin inkişafı üçün dövlət tərəfindən lazımi tədbirlərin hamısını görəcəyik. Çünki biz yaxşı bilirik ki, islam Azərbaycan xalqının, bütün islam aləminə mənsub olan insanların, məxluqun ən yüksək mənəviyyat mənbəyidir".

Ulu öndər islam dininin işğalçılığa, qəsbkarlığa sövq etmədiyini, insanlara dostluq, qardaşlıq, sülh, barışıq aşıladığını demişdir. O, eyni zamanda, başqa dinlərə mənsub vətəndaşlara da sülh və firavan həyat vəd edirdi: "Azərbaycan müstəqil, demokratiya prinsiplərinə mənsub olan bir dövlət kimi öz ərazisində yaşayan bütün xalqlara, bütün millətlərə dinindən, dilindən, irqindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, azadlıq, hürriyyət imkanları verir. Hər bir şəxs hürrdür, azaddır, hər bir şəxs öz daxili aləminə müvafiq olaraq öz amallarını, öz fikirlərini həyata keçirə bilər".

Heydər Əliyev hər zaman bildirirdi ki, islam dini başqa dinlərə tarix boyu hüsn-rəğbətlə yanaşıb, heç zaman başqa dinlərin ehkamlarına qarşı çıxmayıb. Ümummilli lider Azərbaycanın hər bir millətə, dinə mənsub olan vətəndaşına, onun itaət etdiyi dinə hörmətlə yanaşıldığını və bundan sonra da hörmətlə yanaşılacağını deyir, bunun Allahın əmri, Peyğəmbərimizin tövsiyəsi olduğunu qeyd edirdi. O, Azərbaycanın din xadimlərinə tövsiyə edirdi ki, dinimizin bu ülvi xüsusiyyətlərini təbliğ etsinlər, həyata keçirsinlər və yaşatsınlar.

Azərbaycan xalqının əsrlərlə can atdığı azadlığa Sovet İttifaqı süquta uğradıqdan sonra qovuşduğunu qeyd edən Heydər Əliyev Azərbaycanda hüquqi demokratik cəmiyyətin qurulduğunu, çoxpartiyalı sistemin, siyasi plüralizmin, şəxsiyyət, söz, mətbuat, vicdan azadlığının, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsiplərinin möhkəm bərqərar olduğunu qeyd edərək irqindən, din və dil mənsubiyyətindən asılı olmayaraq, çoxmillətli Azərbaycan dövlətinin bütün vətəndaşlarının bərabər hüquqlardan istifadə etdiyini yüksək tribunalardan dünya ictimaiyyətinə fəxrlə bəyan etmişdir.

*Ardı 3-cü səh.*

# Birləşdirici lider

*Əvvəli 1-ci səh.*



Azərbaycan həqiqətən bütün dinlərə böyük hörmət bəsləyən tolerant ölkədir. Bunu hazırda respublikada fəaliyyət göstərən 2166 məscid, həmçinin sinaqoqlar, kilsə və digər din ocaqları aydın göstərir. Ümumiyyətlə, əhalisinin 96 faizi islam dininin daşıyıcısı olan Azərbaycanda bütün məzhəblərə aid din xadimləri öz dini adət-ənənələrini və mərasimlərini heç bir maneə olmadan həyata keçirirlər. Ulu öndər kimin hansı məzhəbə mənsub olmasına əhəmiyyət verilməsinin hər zaman əleyhinə olmuşdur.

Bununla bağlı çox yaxşı xatırladığım bir epizodu oxucuların diqqətinə çatdırmaq istərdim. 1995-ci ilin dekabrında Türkiyənin o zamankı Prezidenti Süleyman Dəmirəl Azərbaycana gəlməli idi. Belə rəsmi səfərlərlə əlaqədar ulu öndər əvvəlcədən xüsusi müşavirə keçirir və rəsmi qonaqların qarşılanmasından yola salınmasınadək tədbirlərin bütün detallarını araşdırıb öz tövsiyələrini verirdi. Süleyman Dəmirəlin günorta namazını hansı məsciddə qılması məsələsi ortaya çıxanda ulu öndər haşiyə çıxaraq demişdi: "Biz Azərbaycanda heç vaxt bilməmişik ki, kim sünni, kim şiədir. Bəlkə də bu, kommunist ideologiyasının, sovet hakimiyyətinin bizə bəxş etdiyi bir xüsusiyyətdir. Azərbaycanda din qadağan olunduğuna görə kimin sünni, kimin şiə olduğu heç vaxt məlum olmayıb. Mən sizə açıq deyə bilərəm, hər halda, Azərbaycanda hamınızdan çox yaşayan adamam, həm də rəhbərlikdə olan adamam. Ancaq indi deyirlər ki, xalqın 25 faizi sünnidir. Mən heç bilmirəm neçə faiz sünni, neçə faiz şiə var, harada sünnidir, harada şiədir? Mən bilmirəm. Mən azərbaycanlılardan kimin şiə, kimin sünni olduğunu bilmirəm. Belə şeyləri biz araşdırmamışıq. Heç araşdırmaq lazım da deyil. Bunlara son qoymaq lazımdır. Biz hamımız müsəlmanıq. Bu sünni-şiə məsələsini bura salmaq lazım deyil... Mən fürsətdən istifadə edib deyirəm. Amma biz çalışmalıyıq ki, bizim millətimizi, xalqımızı parçalamasınlar. Bizim hamımızın bir dinimiz var - islam dini, nə sünnisi var, nə də şiəsi. Bizim dövlət siyasətimiz də budur".

Ulu öndərin bütün dinlərə, bütün insanlara hörmət və ehtiramı onun gördüyü işlərdə də əksini tapırdı. Heydər Əliyev Azərbaycanın dünyaya inteqrasiya olunmasında, bütün ölkələrlə və xalqlarla əlaqələrinin gücləndirilməsində dini dəyərlərin böyük əhəmiyyətini dərindən dərk edir və bunu hamıya aşılamağa çalışırdı. Onun respublikaya rəhbərlik etdiyi illərdə bu sahədə böyük işlər görülmüş, Azərbaycanın istər xristian aləmi, istərsə də müsəlman aləmi ilə əlaqələri daha da genişlənmiş, ölkəmizin təmsil olunduğu beynəlxalq təşkilatlarda bu əlaqələrin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilmişdir.

Məhz ulu öndərin səyi sayəsində dünya katoliklərinin, ümumilikdə xristian aləminin ən nüfuzlu şəxsiyyətlərindən olan Roma Papası II Iohann Pavel müsəlman ölkələri arasında ilk səfərlərindən birini Azərbaycana etmiş və buradakı tolerantlıq mühitinə öz heyranlığını bildirmişdir. Bu səfər bütün dünyada böyük rezonans doğurmuşdur. Ulu öndər Roma Papasının dünya siyasətində, xüsusilə xristian aləmindəki mövqeyini nəzərə alaraq onu Azərbaycana dəvət etməklə sanki islam aləmi ilə xristian dünyası arasında körpü salmış, bir daha Azərbaycanın bütün dinlərə böyük hörmətlə yanaşdığını nümayiş etdirmişdir.

Ulu öndər 2002-ci il mayın 22-də Roma Papasının qarşılanması mərasimində Azərbaycanın hələ 1992-ci ildən Vatikanla diplomatik münasibətlər yaratdığını demiş, bundan 10 il sonra bu dövlətin başçısının, yəni, 264-cü Roma Papasının Azərbaycana gəlişini böyük hadisə kimi qiymətləndirmiş, onu dinindən, dilindən və irqindən asılı olmayaraq, "bütün bəşəriyyətin dostu və dünya vətəndaşı" adlandırmış, bu səfərin xristian və islam dinləri arasında qarşılıqlı etimad və hörmətin gücləndirilməsinə xidmət edəcəyini bildirmişdir. O, 1912-ci ildə Azərbaycanda tikilən ilk katolik kilsəsinin sovet dövründə dağıdıldığını təəssüflə qeyd etmiş və bu səfər zamanı Bakının abad bir guşəsində katolik kilsəsinin bünövrəsi qoyulmuşdur.

Roma Papasının qarşılanması mərasimində ulu öndərin dediyi sözlər bu gün də çox aktual səslənir. O, Roma Papasının əsrlər boyu mövcud olan ənənələrin hüdudlarını cəsarətlə aşdığını, onu insanların və xalqların dostu kimi tanıdığını, bütün dünyanın vətəndaşına çevrildiyini qeyd edərək, Azərbaycanın bu sahədə mövqeyini belə izah etmişdir: "Həmişə öz dini dözümlülüyü, tolerantlığı ilə seçilən Azərbaycan xalqı sizin fəaliyyətinizin bu nəcibliyini və insanpərvərliyini yaxşı başa düşür və yüksək qiymətləndirir".

Bu səfərin iki böyük din arasında qarşılıqlı etimada xidmət etdiyini, katolik kilsəsinin mövcud olduğu bütün dövr ərzində onun Azərbaycana səfər edən ilk Roma Papası olduğunu qeyd edən ulu öndər Azərbaycanın Ermənistan tərəfindən davam edən təcavüzünə son qoyulmasında kömək göstərməsinin vacibliyini də diqqətə çatdırmışdır.

Ulu öndər Azərbaycan xalqının özünəməxsus nadir mədəniyyət yaratdığını, bu mədəniyyətin əsasında müsəlman və xristian mədəniyyətlərinin sintezinin dayandığını, orta əsrlərdən etibarən Azərbaycanın Şərq və Qərb, müsəlman və xristian dünyaları arasında sabit və faydalı dostluq körpüsü olduğunu, müsəlman sivilizasiyasının nailiyyətinin bir sıra hallarda Azərbaycan fikir adamlarının səyi ilə Qərbin mənəvi sərvətinə çevrildiyini, Qərb dəyərlərinin isə islam dünyasında yayıldığını, Azərbaycanın Avropadan gələn yenilikçi ideyalara yiyələnmək baxımından həmişə öndə olduğunu xüsusi qeyd etmiş və bir məsələni ayrıca vurğulayaraq demişdir: "Biz bu gün haqlı olaraq fəxr edirik ki, müsəlman Şərqində yeni tipli məktəblər, demokratik mətbuat, qadın təhsili, seçmək və seçilmək hüququ ilk dəfə Azərbaycanda reallığa çevrilmiş, 1918-ci ildə bütün islam dünyasında Avropa tipli ilk dövlət - Azərbaycan Xalq Cümhuriyyəti bizim ölkəmizdə qurulmuşdur".

Roma Papasının ölkəmizə səfəri zamanı Azərbaycanla Vatikan arasında təməli qoyulmuş dostluq əlaqələri sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən daha da inkişaf etdirilmişdir. Belə ki, 2005-ci ildə Prezident İlham Əliyev Vatikana rəsmi səfər etmişdir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın səyi sayəsində Vatikanın bir sıra tarixi abidələrinin bərpasına kömək göstərilmiş, eyni zamanda, Vatikanda mövcud olan və Azərbaycanın tarixinə dair son dərəcə qiymətli yazılı materialların ölkəmizə gətirilməsinə nail olunmuşdur. 2008-ci il martın 6-da Vatikanın rəsmi nümayəndələrinin iştirakı ilə Bakıda Müqəddəs Məryəm ana katolik kilsəsinin rəsmi açılış mərasimi olmuş, eyni vaxtda 250-300 nəfərin ibadət edə biləcəyi, ümumi sahəsi 1256 kvadratmetr olan kilsə ziyarətçilərin istifadəsinə verilmişdir. Hazırda bu kimi təqdirəlayiq işlər böyük həvəslə davam etdirilməkdədir. Vatikanda Azərbaycanı ən tolerant ölkə kimi tanıyırlar. Bu işdə, sözsüz ki, həm ulu öndərin, həm də onun layiqli davamçısı cənab Prezident İlham Əliyevin rolu böyükdür.

Sözün əsl mənasında, böyük demokrat, böyük humanist və böyük tarixi şəxsiyyət olan Heydər Əliyevin ideyaları - dözümlülük, tolerantlıq və bir-birinə qarşı səbirli münasibət Azərbaycan mültikulturalizmi kimi fenomenin yaranmasında, inkişafında və artıq bütün dünyada qəbul edilməsində vacib rol oynamışdır. Bu ənənələr indinin özündə də ölkə rəhbərliyi tərəfindən xüsusi diqqət və qayğı ilə qorunub saxlanılır, reallaşdırılır və inkişaf etdirilir.

Ümummilli liderin multikulturalizm ideyaları bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən davam etdirilir və zənginləşdirilir. Son zamanlar Azərbaycan, Rusiya və Gürcüstan din xadimlərinin əlaqələri daha da genişlənmiş, hətta bir neçə il əvvəl Ermənistan katolikosunun da qatıldığı dini liderlərin yüksək səviyyəli görüşü məhz Bakıda keçirilmişdir. Azərbaycanda yaşayan və müxtəlif dinlərə mənsub insanlar üçün bir sıra tarixi-dini məbədlərə yeni həyat verilmişdir. Bir neçə il əvvəl Azərbaycanda IX əsrdə tikilmiş Şamaxı Cümə məscidi bərpa edilmiş, müxtəlif rayonlarda olan ibadət və ziyarətgahlar təmir olunaraq insanların istifadəsinə verilmişdir. Həmçinin 2016-cı il fevralın 16-da Azərbaycan Prezidentinin iştirakı ilə Gəncədə "İmamzadə" dini ziyarətgah kompleksinin yenidənqurma və əsaslı bərpasından sonra ziyarətçilər üçün açıq elan edilməsi möminlər üçün qiymətli töhfədir.

Prezidentin sərəncamı ilə ayrılmış vəsait hesabına tamamilə yenidən qurulan və bərpa edilən "İmamzadə" dini ziyarətgah kompleksinin açılışında dövlət başçısı İlham Əliyev bunun ümumxalq sərvəti olduğunu, bütün müsəlman aləminin qiymətli abidəsinə, milli-mənəvi sərvətinə çevrildiyini, onun yenidən istifadəyə verilməsinin tarixi hadisə olduğunu qeyd etmişdir. Dövlət başçısı açılış zamanı bildirmişdir ki, Azərbaycanda bütün dini abidələr dövlət tərəfindən qorunur, bərpa edilir və yenidən tikilir. Müstəqillik dövründə iki minə yaxın məscid, digər dinlərin məbədləri, o cümlədən pravoslav, katolik, alban kilsələri, sinaqoqlar inşa olunub, Bibiheybət, Təzəpir, Əjdərbəy, Şamaxı Cümə məscidi yenidən qurulub. Dövlət başçısı Azərbaycandakı tolerantlığın artıq digər ölkələr üçün nümunəyə çevrildiyini vurğulamışdır: "Azərbaycanda dövlət - din münasibətləri yüksək səviyyədə tənzimlənir, həll olunur, cəmiyyətimizin, ölkəmizin dayanıqlı inkişafı üçün dövlət-din münasibətlərinin çox böyük əhəmiyyəti var. Azərbaycan modeli, Azərbaycan nümunəsi bu gün dünyanın müxtəlif ölkələrində öyrənilir. Bizim bu istiqamətdəki siyasətimiz artıq özünü həm ölkəmizdə, həm bölgədə, həm də dünyada təsdiq etmişdir. Biz öz milli-mənəvi, dini dəyərlərimizə sadiqik, onları qoruyuruq, eyni zamanda, müsəlman aləmində həmrəyliyin möhkəmləndirilməsi üçün səylərimizi əsirgəmirik".

Azərbaycan Prezidenti haqlı olaraq qeyd etmişdir ki, Azərbaycanda dövlətdin münasibətləri bütün müsəlman aləmində, eyni zamanda, beynəlxalq aləmdə müsbət qarşılanır. Ölkəmiz yürütdüyü siyasətdə müsəlman ölkələri arasındakı ixtilafları aradan götürmək yolunda ciddi səy göstərir. Bu baxımdan Azərbaycanda Heydər Əliyev ənənələrinin və onun tövsiyələrinin həyata keçirilməsini Bakının Binəqədi rayonunda tikilib istifadəyə verilmiş Heydər məscidi bir daha sübut edir. Bu məscid regionda sülh, səbir, iman, dözüm, ədalətin, həmçinin ibadətin yeni rəmzinə çevrilən ən iri məsciddir. 12 min kvadratmetr sahəni əhatə edir və orada 7 min nəfərin eyni vaxtda namaz qılmasına imkan var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin səyi və bütün Azərbaycan vətəndaşlarının arzusu ilə tikilib istifadəyə verilmiş bu məsciddə şiə və ya sünni olmasından asılı olmayaraq, bütün müsəlmanların ilk dəfə bir araya gələrək eyni vaxtda bir sırada vəhdət namazı qılması bütün müsəlman aləminə bir mesaj kimi qəbul edilməlidir. Ölkə Prezidenti bildirmişdir ki, "Azərbaycanda bütün müsəlmanlar bir ailə kimi yaşayırlar. Tarixdə Azərbaycanda heç vaxt məzhəbçilik zəminində heç bir məsələ olmamışdır. Kiçik anlaşılmazlıq belə olmamışdır, olmamalıdır və olmayacaqdır. Bunun bariz nümunəsi bu yaxınlarda Heydər məscidində bütün müsəlmanların vəhdət namazı qılmasıdır".

Ölkəmizdə hökm sürən multikulturalizm respublikamızda irimiqyaslı beynəlxalq tədbirlərin, forumların, müxtəlif müsabiqələrin, konfransların, idman yarışlarının sərbəst və maneəsiz keçirilməsinə də öz müsbət təsirini göstərir. Dövlət başçısının qeyd etdiyi kimi, Azərbaycanda dinlərarası münasibətlər çox sağlam yolla öz həllini tapır və biz dünyada bu istiqamətdə də öz rolumuzu oynayırıq. Bu il Azərbaycanda BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun keçirilməsi dünya miqyasında dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün ən mötəbər tədbirdir. Bu il bu şərəfli missiyanı Azərbaycan öz üzərinə götürüb.

Azərbaycan Prezidenti ölkəmizdə mövcud olan tolerant mühiti sabitliyin, əmin-amanlığın nəticəsi hesab edir və dünyada hazırda hökm sürən qanlı münaqişələrdən narahatlığını bildirir: "... mən tam əminəm ki, əgər dünyada bundan sonra da dini zəmində qarşıdurmalar davam edərsə, bu, böyük fəlakətə gətirib çıxaracaqdır. ... Avropada radikal partiyaların gücü, onlara səs verən əhalinin sayı artır. Bir daha demək istəyirəm, əgər dini zəmində bu qarşıdurma və təbliğat davam edərsə, gələcəkdə biz çox böyük problemlərlə üzləşəcəyik".

Dövlət başçısı Azərbaycanın uzun illər boyunca sınanmış yolla gedəcəyini, multikulturalizmlə bağlı əlavə tədbirlər görüləcəyini, bu məqsədlə 2016-cı ilin "Multikulturalizm ili" elan edildiyini, Azərbaycanda Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradıldığını, təkcə idmançılar üçün deyil, bütün islam dünyası üçün töhfə olan IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakıda keçiriləcəyini qeyd etmişdir. Azərbaycan Prezidenti Yaxın Şərqdə gedən döyüşlərdə qardaş qanının axıdılmasına, şəhər və qəsəbələrin, hətta bütövlükdə ölkənin bərbad hala salınmasına təəssüflənərək ölkəmizdən həminin nümunə götürməli olduğunu demişdir.

Ulu öndərin tarix qarşısında ən böyük xidmətlərindən biri məhz Azərbaycanda tolerantlıq, multikulturalizm ideyalarının daha da inkişaf etdirilməsi və gündəlik həyat normasına çevrilməsidir. Bu gün multikulturalizm adı ilə tanınan mənəvi-dini dəyərlər toplusu, heç şübhəsiz ki, bilavasitə ulu öndərin ideyalarından bəhrələnmişdir. Bu ideyalar hələ uzun illər Azərbaycan xalqının və bütövlükdə bəşəriyyətin sülh, əmin-amanlıq və firavanlıq uğrunda mübarizəsinə hiss olunacaq dərəcədə təkan verəcəkdir.

**Süleyman İSMAYILOV,**

***Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri, YAP Siyasi Şurasının üzvü***